***ALİ MƏCLİSİN İCLASI***

*16 noyabr 2024-cü il. Saat 10.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini **Bəxtiyar Məmmədov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il payız sessiyasının dördüncü iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 44 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 10.01 dəq.) |
|---|---|
| İştirak edir | 44 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

İclasın gündəliyinə aşağıdakı məsələ verilir:

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin seçilməsi.

Gündəliyə əlavəsi olan varmı?

Yoxdur.

Gündəlik qəbul olunur.

Hörmətli deputatlar!

Gündəlikdə duran məsələ Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin seçilməsi haqqındadır.

Məsələ ilə əlaqədar məlumat vermək üçün söz Ali Məclis Aparatının rəhbəri Ülvi Hüseynliyə verilir.

Buyurun, Ülvi müəllim!

**Ü.Hüseynli,** *Ali Məclis Aparatının rəhbəri.*

Hörmətli Bəxtiyar müəllim, hörmətli deputatlar və sessiya iştirakçıları!

Bildiyiniz kimi, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müəyyən etdiyi məsələlərdən biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdir.

Eyni zamanda Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsində də qeyd olunur ki, Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvləri təyin edilir.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 30 dekabr 2020-ci il tarixli Qərarı ilə seçilmişdir. Ötən müddət ərzində komissiya üzvlərinin komplektləşdirilməsi və komissiyanın fəaliyyətinin təmin olunması istiqamətində müvafiq tədbirlər görülmüşdür. Bu müddət ərzində komissiya artıq

yeni fəaliyyət göstərən Ali Məclisə seçkiləri həyata keçirmişdir. Komissiya üzvlərinin komplektləşdirilməsi və komissiyanın fəaliyyətinin təmin olunması ilə bağlı aparılan islahatlar çərçivəsində bir sıra məsələlərlə də qarşılaşmışdıq. Xüsusilə, Mərkəzi Seçki Komissiyasının sabiq sədrinin bu il Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçiriləcək seçkilərə deputatlığa namizədliyini irəli sürməsi onun komissiya sədrliyindən və üzvlüyündən uzaqlaşdırılmasına səbəb olmuş, eyni zamanda komissiyaya yeni sədr və üzvlərin seçilməsi prosesi həyata keçirilmişdir.

Komissiya üzvü olan Əkrəm Hüseynzadə komissiyaya yeni sədr seçilmişdir. Bildiyiniz kimi, Əkrəm Hüseynzadə ötən ay vəfat etmişdir. Eləcə də komissiyanın bir sıra üzvlərinin də səhhətində yaranan problemlərlə əlaqədar seçki prosesinin aparılması zamanı müəyyən çətinliklərlə qarşılaşdıq. Həm bəzi üzvlərin səhhətlərində yaranan problemlər, həm də bəzilərinin isə bu fəaliyyətdə maraqlı olmamaları komissiyanın yeni tərkibinin seçilməsini zəruri etmişdir.

Qeyd etdiyim kimi, həm Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, həm də "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 22-ci maddəsinə əsasən, Mərkəzi Seçki Komissiyasının üzvləri Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin təklifi ilə Ali Məclis tərəfindən 5 il müddətinə təyin edilir. Mərkəzi Seçki Komissiyası 7 üzvdən ibarət olur. Komissiyanın üzvləri ali təhsilli, aktiv seçki hüququna malik, Naxçıvan Muxtar Respublikasında daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları olmalıdırlar. Bu, qanunun birmənalı tələbidir. Üzvlər seçildikdən sonra komissiyanın ilk iclasında sədr, onun müavini və katibi seçilir.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 23-cü maddəsinə əsasən, Mərkəzi Seçki Komissiyası Ali Məclis deputatlarının seçkilərinin hazırlanmasını və keçirilməsini birbaşa təmin edən müvafiq qurumdur. Komissiya seçkilərin hazırlanmasında və keçirilməsində vətəndaşların seçki hüquqlarına riayət olunmasına nəzarət edir, seçkilərin maliyyələşdirilməsi ilə əlaqədar tədbirlər həyata keçirir, həmçinin qanunla nəzərdə tutulmuş digər vəzifələri birmənalı şəkildə icra edir.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 24-cü maddəsinə əsasən, Ali Məclisə seçkilərin keçirilməsi zamanı Mərkəzi Seçki Komissiyası seçkilərin həmin qanuna uyğun keçirilməsinə birbaşa nəzarət edir, seçki dairələri üzrə qeydə alınmış namizədlər arasından seçilmiş deputatları müəyyən edir, onlara müvafiq vəsiqə verir. Ali Məclisə seçkilərin nəticələrini, dairə seçki komissiyalarının protokollarındakı məlumatlar da daxil olmaqla, rəsmi olaraq dərc edir, seçilmiş deputatların siyahısını tərtib edir, bu siyahıları və lazımi sənədləri Ali Məclisə təqdim edir. Həmçinin komissiya təkrar seçkilər və öz mandatlarını itirmiş deputatların yerinə seçkilər keçirilməsini də bu çağırış müddətində təmin edir, eləcə də qanunda nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirir.

Hörmətli Bəxtiyar müəllim,

Seçkilərdən və komissiya sədrinin vəfat etməsindən sonra Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının fəaliyyətinin qurulmasında müəyyən çətinliklər müşahidə edirik. Ali Məclis Aparatının müvafiq şöbələri tərəfindən də artıq bu məsələ təhlil olunmuş və rəhbərliyinizlə bu məsələ bir daha müzakirə olunmuşdur.

Komissiyanın yeni tərkibinin seçilməsi zərurətini əsaslandırdıq, çünki bundan sonrakı dövrdə komissiyanın işi yalnız seçkilərin keçirilməsi ilə bitməməlidir. Belə ki, seçkilərin və seçki prosesinin hazırlıq dövrünün, həmçinin digər məsələlərin qanunla və Mərkəzi Seçki Komissiyasının əsasnaməsi ilə müəyyən edilmiş vəzifə və səlahiyyətləri var. Buna görə də yeni tərkibin seçilməsi birbaşa zərurətdir.

Bir məsələni də xatırladım ki, əgər deputat mandatını itirirsə və ötən çağırış müddəti başa çatmadan həmin dairə üzrə seçkilərin keçirilməsi tələb olunursa, o zaman komissiyanın komplekt şəkildə olmasına ciddi ehtiyac var. İkinci bir tərəfdən isə bu, qanunun birbaşa tələbidir. Ona görə də bu gün keçirilən Ali Məclisin payız sessiyasının növbəti iclasının birbaşa bu məsələyə həsr olunması vacibdir və bu, bir qurumun fəaliyyətinin təmin olunması üçün atılacaq ən mühüm addımlardan biri olacaqdır.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Ülvi müəllim!

Məlumat verildiyi kimi "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 22.2-ci maddəsinə müvafiq olaraq Mərkəzi Seçki Komissiyasının üzvləri Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin təklifinə əsasən Ali Məclis tərəfindən 5 il müddətinə seçilirlər.

Təklif edirəm ki, aşağıdakı şəxslər Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvləri təyin edilsinlər:

1. Bağırov Orxan Rza oğlu
2. Əliyev Asim Yediyar oğlu
3. Heydərli Elşən Sadıq oğlu
4. Həsənli Çingiz Namizəd oğlu
5. Orucəliyev Ramil Əli oğlu
6. Rüstəmova Məlahət Oruc qızı
7. Yaqubov Nicat Əsgər oğlu

Məsələ ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim, hörmətli sessiya iştirakçıları!

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının tərkibinə təklif olunan şəxslər işlədikləri sahələrdə özlərini doğrultmuş bacarıqlı insanlardır. Təklif olunan şəxslərin hər birini tanıyırıq. Onların əksəriyyəti əvvəllər seçki sahəsində işləmiş şəxslərdir və bu sahədə kifayət qədər təcrübələri vardır. Bu, onlar üçün yad və yeni bir sahə deyil. Keçmişdə seçki sahəsində çalışmış biri kimi onların iş qabiliyyətlərinə bələdəm və düşünürəm ki, bu vəzifənin öhdəsindən layiqincə gələcəkdirlər. Uzun illərin verdiyi təcrübə və peşəkarlıq qarşıya çıxa biləcək problemlərin rahatlıqla həll edilə biləcəyinin ən mühüm təminatı olacaqdır.

Ümumiyyətlə, seçki vətəndaşların dövlətin idarə olunmasında iştirak etmək hüququnun nümayəndələri vasitəsilə həyata keçirilməsini təmin edən mühüm bir prosesdir. Vətəndaşların dövlətin və cəmiyyətin siyasi həyatında, dövlətin idarə olunmasında iştirak etməsi, sistemin formalaşdırılması, dövlət orqanlarının legitimliyi kimi bir çox məsələlər birbaşa seçki ilə əlaqədardır. Seçki prosesi seçkinin elan olunduğu gündən nəticələrinin rəsmi təsdiq olunduğu günədək davam edən, təşkili və keçirilməsi qabiliyyət və qanunvericilik sahəsində biliklər tələb edən mühüm ictimai-siyasi hadisədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının seçkilərinin hazırlanması və keçirilməsinə cavabdeh olan orqan kimi Naxçıvan

Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun eyni cür və dürüst tətbiqini təmin edir. Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının fəaliyyətinin əhəmiyyəti nəzərə alındığı zaman Mərkəzi Seçki Komissiyasının tərkibinə təklif edilmiş şəxslərin qeyd edilən tələbləri yerinə yetirmək üçün kifayət qədər bilik və təcrübəyə sahib olduqlarını görürük.

Qeyd etmək lazımdır ki, qarşıda mühüm vəzifələr dayanır. Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının fəaliyyətinin daha da təkmilləşdirilməsinin və maddi-texniki bazasının daha da yaxşılaşdırılmasının, eləcə də "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun üzərində işin davam etdirilərək təkmilləşdirilməsi olduqca vacibdir.

Əminəm ki, yeni tərkiblə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası qarşıda duran vəzifələrin öhdəsindən layiqincə gələrək Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin təşkili və keçirilməsini demokratik prinsiplər əsasında qanunvericiliyin tələblərinə uyğun təşkil edilməsini təmin etməkdə davam edəcəkdir.

Çox sağ olun!

**Sədrlik edən.** Çox sağ olun, Əjdər müəllim!

Müzakirə olunan məsələ ilə bağlı qərar layihəsi hazırlanmışdır.

"Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin təyin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 8-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

Aşağıdakı şəxslər Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvləri təyin edilsinlər:

1. Bağırov Orxan Rza oğlu
2. Əliyev Asim Yediyar oğlu
3. Heydərli Elşən Sadıq oğlu
4. Həsənli Çingiz Namizəd oğlu
5. Orucəliyev Ramil Əli oğlu
6. Rüstəmova Məlahət Oruc qızı
7. Yaqubov Nicat Əsgər oğlu

Deputatlardan kim qərar layihəsinin oxunan qaydada qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 10.13 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim,

Səsvermədə iştirak edən 44 deputat Mərkəzi Seçki Komissiyasının tərkibinin təklif olunan qaydada təsdiq olunmasının lehinə səs vermiş, əleyhinə və ya səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qərar qəbul edildi.

Mərkəzi Seçki Komissiyasının üzvlərini təbrik edirəm. Komissiyanın üzvlərindən çıxış etmək istəyən varmı?

Buyurun, Ramil müəllim!

**R.Orucəliyev,** *Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.*

Hörmətli Bəxtiyar müəllim! Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü təyin edildiyimizə görə minnətdarlığımızı bildiririk. Əmin edirik ki, qarşıdakı 5 il ərzində Mərkəzi Seçki Komissiyası üzərinə düşən məsuliyyətli vəzifələrin öhdəsindən layiqincə gələcək, Naxçıvan Muxtar Respublikasında seçkilərin hazırlanması, keçirilməsi, seçki siyahılarının dəqiqləşdirilməsi işində daim aktivlik nümayiş etdirəcəkdir. Bir daha təşəkkür edirəm.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun!

Əlavə çıxışı olan varmı?

Yoxdur.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclası öz işini başa çatdırdı.

Sağ olun!